

# Xalqımızın tarixi ideallarını gerçəkləşdirmiş lider

**Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 15 iyun, sadəcə, təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi mahiyyət daşıyan ümumxalq təntənəsidir. Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə möhtəşəm xilaskarlıq hadisəsi kimi daxil olmuşdur.**

***1993-cü ilə qədər bizim dövlət müstəqilliyimiz şərti xarakter daşıyırdı. Atributlar var idi, ancaq ölkə müstəqil siyasət apara bilmirdi. 1993-cü il dönüş nöqtəsi oldu. Məhz Heydər Əliyevə xalq tərəfindən göstərilən inam, etimad imkan verdi ki, ölkə bu ağır vəziyyətdə, vətəndaş müharibəsinin fəsadlarından ləyaqətlə çıxa bilsin və belə də oldu. Sabitlik yaradıldı, inkişafa yol açıldı, bütün sahələrdə, ilk növbədə, siyasi sahədə islahatlar icra edilməyə başlandı.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Müstəqilliyin ilk illərində Azərbaycanda yaranmış gərgin vəziyyət xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu müstəsna və zəruri tələb kimi irəli sürmüşdü. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz ümummilli lider Heydər Əliyevdir. 1993-cü ilin ortalarına doğru ölkədə hakimiyyət böhranı getdikcə daha kəskin xarakter almışdı. Azərbaycanın müstəqilliyi üçün gerçək təhlükə yaranmışdı. O zaman xalqın təkidli tələbi ilə dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyev hakimiyyətə qayıtmışdır. Bir əsrdə müstəqilliyini ikinci dəfə bərpa etmiş Azərbaycan suverenliyini yenidən itirmək təhlükəsi qarşısında qalanda xalqın qüdrətli oğlu Heydər Əliyev xilaskarlıq missiyası ilə hakimiyyət sükanı arxasına keçmişdir. Zəngin idarəetmə təcrübəsi və yorulmaz fəaliyyəti ilə ulu öndər qısa müddətdə öz ölkəsini və xalqını fəlakətin girdabından çıxartmışdır. Sonrakı dövrdə onun gerçəkləşdirdiyi zəruri tədbirlər gənc müstəqil dövlətin hərtərəfli inkişaf və tərəqqi yoluna çıxmasını təmin etmişdir.

Bütün bunlar məhz 1993-cü ilin 15 iyunundan başlandığına görə xalqımız həmin tarixi Milli Qurtuluş Günü olaraq dəyərləndirmiş və Milli Məclis cəmiyyətin bu istəyini 1997-ci ildə rəsmiləşdirmişdir. Həmin vaxtdan etibarən xalqımız hər il iyunun 15-ni ümummilli bayram kimi qeyd edir və Azərbaycan dövlətçiliyinin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir.

Milli Qurtuluş Günü ilə başlanan yeni yolda 10 il müstəqil Azərbaycanın Prezidenti olmuş Heydər Əliyev ən böyük tarixi nailiyyətimiz olan dövlət müstəqilliyimizi xilas etmiş, qorumuş, möhkəmləndirmiş və əbədiyyət yoluna çıxarmışdır. Azərbaycan Prezidenti İlham Əliyev isə ümummilli lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq 17 ildir ki, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Artıq 27 ildir ki, Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliləyir, inkişaf edir, uğurlar qazanır. Beləliklə, Azərbaycanın bugünkü uğurlarının əsasında qurtuluş məfkurəsi dayanır.

Milli qurtuluş məfkurəsi isə özündən əvvəlki tarixi fəaliyyətin nəticəsi olaraq ərsəyə gəlmişdir. Hələ ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərindən, ümumən, dünyada çox böyük hadisələr baş vermişdi. Bu hadisələri belə səciyyələndirmək olar ki, dünyada milli azadlıq hərəkatlarının artıq aşkar şəkildə getməsi və imperiyaların dağılması prosesi gedirdi. Gün gəldi ki, dünyanın ən böyük imperiyası olan sovetlər birliyində də bu istiqamətdə hadisələr cərəyan etməyə başladı. Sovetlər imperiyasının dağılacağını birliyin rəhbərləri də az-çox proqnozlaşdırırdılar.

Fenomenal siyasi duyumu və analitik təfəkkürü ilə Heydər Əliyev hələ dövlət təhlükəsizlik orqanlarında çalışdığı dövrdə görürdü ki, sovetlər birliyi daxilindəki millətlərin düşüncələri mərkəzdənqaçma yönündə axtarışdadır. O, dərin zəkası və uzaqgörənlik duyğusu ilə görür və hiss edirdi ki, xalqların zorən birliyi getdikcə möhkəmliyini itirir. Ona görə də xalqımızın gələcək lideri gənc yaşlarından istedadlı, tarixi yaxşı bilən, siyasi prosesləri düzgün dəyərləndirən bir insan kimi öz fəaliyyətində xalqımızın milli maraqlarının müdafiəsinə daha çox diqqət verirdi.

Biz o illərdən bərinin Azərbaycanına tez-tez Heydər Əliyevin Azərbaycanı deyirik. Bu, ona görə belədir ki, Heydər Əliyev məsul və rəhbər vəzifələrdə o qədər genişmiqyaslı fəaliyyət göstəmiş və o qədər uğurlu nəticələr əldə etmişdir ki, zaman keçdikcə Azərbaycanın özü Heydər Əliyevin Azərbaycanına çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə seçdiyi taktika bu məqsədlərə xidmət edirdi: Azərbaycan iqtisadiyyatını, imperiya daxilindəki mövqeyini gücləndirməklə öncül mövqeyə çıxmalı və sovetlər birliyi səviyyəsində elə tanınmalıdır ki, bu, respublikanın varlığını dünyaya çıxardan faktora çevrilsin. Heydər Əliyev böyük dövlət xadimi olduğuna və milli maraqları müdafiə etməyin texnologiyalarını yaxşı bildiyinə görə 1960-cı illərin sonu və 1970-ci illərdə milli inkişaf meyillərinin geniş miqyasda yayılmasına nail oldu.

Bir mühüm məsələ də ondan ibarət idi ki, ulu öndər Azərbaycanı sovetlər birliyində tanınan bir respublikaya çevirdi. Heydər Əliyev bütün gücünü toplayaraq dövlət quruculuğundan daha çox xalq, millət quruculuğu işinə diqqət yetirirdi. O yaxşı bilirdi ki, qədim və zəngin milli varlığı olan xalq dövlətsiz ola bilməz. Azərbaycan xalqı da gec-tez özünəməxsus dövlətini quracaq.

Heydər Əliyev əsl milli lider olaraq, yaxşı bilirdi ki, xalq istedadlı nümayəndələrinin timsalında dünyaya açılarsa, özünü başqa xalqlarla müqayisə etmək imkanları qazanacaqdır ki, bu da müstəqillik (və mütəşəkkillik) üçün mühüm şərtdir. Bu, müdafiə deyil, hücum taktikası idi. Heydər Əliyev Moskvaya, ümumən, sovetlər birliyinə konkret işlə sübut etdi ki, azərbaycanlılar zəhmətkeş, mədəni, hər sahədə uğurlar qazana bilən istedadlı bir xalqdır.

*(ardı 2-ci səhifədə)*

Xalq qəzeti 2020.- 14 iyun.- S.1;2.

# Xalqımızın tarixi ideallarını gerçəkləşdirmiş lider

*(əvvəli 1-ci səhifədə)*

Xalqı yüksəltməyin, özünə və dünyaya tanıtmağın elə bir üsulu, forması qalmadı ki, Heydər Əliyev ondan tam gücü ilə istifadə etməmiş, sınaqdan keçirməmiş olsun. İqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi kimi fundamental sahələrdəki uzun illərin gerilikləri, ətaləti və hərc-mərcliyi tezliklə nəinki aradan qaldırıldı, həm də respublikanın ictimai həyatında elə bir canlanma oldu ki, insanlar milli mənsubiyyətlərilə qürur duymağa başladılar.

Xalqımızın qeyrətli oğlu Heydər Əliyev Azərbaycanda sovet dövlət idarəçiliyi sistemini Azərbaycan xalqının xidmətinə verməklə onu (dövlət idarəçiliyini) mərkəzi hakimiyyətin "canişinliyi"ndən çıxardı. Və bunun nəticəsidir ki, azərbaycanlılar yalnız idarə olunan yox, həm də idarə edən xalqa çevrildilər. Sovetlər birliyinin dağılması, Azərbaycanda milli müstəqillik (və dövlət müstəqilliyi) uğrunda hərəkatın güclənməsi illərinin sosial-siyasi mənzərəsi göstərdi ki, Heydər Əliyev Azərbaycan xalqını doğru yolla aparmış həqiqi milli lider olmuşdur.

Məhz 1980-ci illərin sonlarında xalq hərəkatı baş qaldırarkən hamı bilirdi ki, bu xalq Heydər Əliyevin sayəsində mütəşəkkillik tapıb. Bu mütəşəkkilliyi isə, məhz, onu yaradan iradə və bacarıq idarə edə bilər. Ümummilli lider Heydər Əliyevin xalq, millət quruculuğundakı xidmətləri artıq müəyyən bir tarixə malik idi. Bu, bütün dəqiqliyi ilə təmənnasız bir tarix idi. Yəni, Heydər Əliyevin fəaliyyəti daxildən gələn, xalqın mütəşəkkillik enerjisini özündə ifadə edən bir fəaliyyət idi.

Lakin 1990-cı illərin əvvəlində, müstəqilliyin ilk addımlarında müəyyən qüvvələr Azərbaycan xalqının ümummilli lideri haqqında çirkin təbliğat aparırdılar. Buna baxmayaraq, bütün hallarda onlar Heydər Əliyevin böyük şəxsiyyət olması reallığını da inkar edə bilmirdilər. Hətta, ən inkarçı adam belə bilirdi ki, Heydər Əliyev böyük şəxsiyyətdir. Heç kəs deyə bilməzdi ki, Heydər Əliyev rəhbər səlahiyyətlərindən şəxsi maraqları və hansısa neqativ hallar üçün istifadə edib. Çünki Heydər Əliyev Azərbaycan SSR-in rəhbəri kimi fəaliyyət göstərdiyi dövrlərdə ancaq quruculuq işləri ilə məşğul olmuşdu.

Heydər Əliyev özü isə yeni tarixi şəraitdə yaxşı bilirdi ki, Azərbaycan artıq müstəqil dövlətdir və həm daxili, həm də xarici siyasətdə müstəqil hərəkət etməlidir. Amm ulu öndər onu da yaxşı bilirdi ki, yeni tarix əvvəlki tarixin davamıdır. Yəni xalq kökündən dəyişilməyib – Azərbaycana başqa xalq gətirilməyib, əvvəlki xalq tarixə çevrilməyib. Bu xalqı Heydər Əliyev yaxşı tanıyırdı. Ona görə də dövr nə qədər yeni olsa da, o, əvvəllər gördüyü işləri yeni tarixi şəraitdə daha inamla davam etdirdi.

Heydər Əliyev başladığı millət quruculuğu prosesini ölkəyə rəhbərliyinin ikinci dövründə daha inamla davam etdirərək, ən tendensiyalı və ya qısqanc tarixçinin belə etiraf etməli olduğu, həqiqətən, cahanşümul işlər gördü. Buraya aşağıdakılar aiddir: milli mütəşəkkilliyin müstəqil dövlətçilik səviyyəsində təmin olunması; dünya azərbaycanlılarının mədəni-siyasi birliyinin gücləndirilməsi; Türk dünyasının etnik-mədəni birliyinin yüksəldilməsi. Bütün bunlar isə Azərbaycan xalqının dünya miqyasında özünə get-gedə daha möhkəm mövqe tutmasını təsdiq etməklə böyük milli inkişaf perspektivləri müəyyənləşdirir.

Azərbaycanın inkişaf konsepsiyasının Heydər Əliyev irsi ilə bağlılığını əhatəli şəkildə qavramağın ən etibarlı üsulu onun xalq qarşısındakı xidmətlərinə nəzər salmaqdır. Lakin Heydər Əliyevin xalqa xidməti anlayışı kifayət qədər tutumlu olduğundan onun dərindən tədqiqinə ehtiyac var. Həyatımızın elə bir sahəsi yoxdur ki, ulu öndərin rəhbərliyi illərində inkişafa nail olunmasın. Həm də bu inkişaf, sadəcə, prosesin adi axarının təzahürü formasında deyil, bir qayda olaraq, əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan sıçrayış xarakterli yeniləşmə formasında özünü biruzə vermişdir.

Təcrübəli siyasətçi olaraq Heydər Əliyevin hakimiyyətə qayıdışının ilk günlərindən dövlət quruculuğu, demokratik institutların təşəkkül taparaq inkişaf etdirilməsi, siyasət, sosial-iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, infrastruktur sahələrində önəmli islahatların keçirilməsinə start verildi. Şəksizdir ki, başlanılan islahatların uğurla həyata keçirilməsi üçün, ilk növbədə, Azərbaycanın iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi tələb olunurdu. Çünki çağdaş dünyanın beynəlxalq münasibətlər sistemində siyasətin formalaşdırılmasının əsasında iqtisadi amillər dayanır. Yəni dövlətlərarası münasibətlərin inkişafında iqtisadi əlaqələrin varlığı olduqca mühüm rola malikdir.

Əvvəlki hakimiyyətlərin anlaşılmaz, bir çox hallarda isə qərəzli və şəxsi mənfəət çərçivəsində yürütdüyü iqtisadi siyasət isə Azərbaycanı kataklizmlər uçurumuna yuvarlayıb, hiperinflyasiyanın tüğyan etməsinə, dövlət borclarının, az qala, ümumdaxili məhsulun həcmi səviyyəsinə qalxmasına, beləliklə də ölkənin müstəmləkə halına düşə biləcəyinə gətirib çıxarmışdı. Digər tərəfdən, Azərbaycanda daxili qeyri-sabit siyasi vəziyyət ölkəmizə xarici investisiyanın gəlişinin qarşısını alırdı. Hakimiyyət daxilindəki xaotik mənzərə ölkənin iqtisadi-siyasi durumuna da təsir edirdi.

Heydər Əliyevin gündəmə gətirdiyi iqtisadi siyasət bu neqativ halların qarşısına etibarlı sipər çəkdi, qərəzli və kortəbii siyasət nəticəsində Azərbaycanın sərvətinin çeşidli fırıldaqçı xarici ünsürlərə "peşkəş" edilməsi prosesinə birdəfəlik xitam verdi. Eyni zamanda, Azərbaycan iqtisadiyyatında əhəmiyyətli çəkiyə malik olan energetika sektoruna dünyanın ən aparıcı, ən nüfuzlu və sanballı şirkətləri cəlb edilməyə başladı ki, bu siyasətin təməlində Heydər Əliyevin neft strategiyası dururdu. Belə ki, dərin iqtisadi tənəzzül prosesi yaşayan Azərbaycan üçün, ilk növbədə, dünya miqyasında daha cəlbedici olan neft sektoruna xarici sərmayələrin yatırılması prioritet vəzifə kimi qarşıya qoyuldu.

İlkin mərhələdə yalnız bu yolla Azərbaycan iqtisadiyyatını tənəzzüldən xilas etmək və ölkənin həm daxili potensial imkanlarını, həm də xarici kapitalı Qərblə ayaqlaşa biləcək müasir bir dövlətin formalaşmasına yönəltmək mümkün idi. Beynəlxalq aləmdə dünya siyasətinin ən görkəmli xadimlərindən biri sayılan Heydər Əliyevin verdiyi zəmanət kifayət etdi ki, ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Yaponiya və digər aparıcı dövlətlərin ən sanballı şirkətləri Azərbaycanın neft-qaz sektoruna sərmayə yatırsınlar.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi ilə start götürən neft strategiyasının uğurları sonradan Bakı–Tbilisi–Ərzurum qaz kəməri və Bakı–Tbilis–Qars dəmir yolu kimi digər transmilli layihələrin inşasına yol açdı. Bu isə Ermənistanın təcavüzü nəticəsində işğal olunan Dağlıq Qarabağın və digər rayonlarımızın azad edilməsi istiqamətində aparılan siyasətin daha yüksək səviyyədə dəstəklənməsinə gətirib çıxardı.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursu bu gün Prezident İlham Əliyev tərəfindən daha da modernləşdirilir, müasir beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılır və inkişaf etdirilir. İstər daxili, istərsə də xarici arealda sabit, milli maraqlara söykənən, problemlərin həllinə istiqamətlənən, vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsini özündə əks etdirən və ən əsası münasibətlərin və əlaqələrin normal və tərəfdaşlıq çərçivəsində inkişafına nail olan siyasətin yürüdülməsi ölkəmizin bütün mənalarda yüksək nailiyyətlərə imza atmasına şərait yaradıb.

Nadir zəka sahibi olan Heydər Əliyevin gerçək ideyalarına söykənən xarici siyasət kursunun mahiyyəti Azərbaycanın daha təkmil bir dövlət kimi yeni və qüdrətli imicini və nüfuzunu formalaşdırmağa yanaşı, həm milli-mənəvi dəyərləri, həm də müasirliyi özündə əks etdirən üçrəngli Azərbaycan bayrağının daha uca zirvələrdə dalğalanacağına əminlik yaradan başlıca amildir.

Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyası zəngin məzmuna və böyük təsir gücünə malik olması ilə xüsusi əhəmiyyət kəsb edir. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illər tarixin ən intensiv mərhələsi kimi yadda qalıb. Bu mənada həmin dövrü tariximizin sürətli və hərtərəfli yüksəliş zirvəsi adlandırmaq dəqiq qiymətləndirmə nümunəsi olardı. Məhz bu zaman kəsiyində Heydər Əliyev fenomeni Azərbaycanın malik olduğu bütün intellektual və insani potensialı, təbii resursları, bir sözlə, milli gücü özündə cəmləyib, ölkənin sürətli tərəqqisinin qüdrətli amilinə çevirib.

Heydər Əliyevin formalaşdırdığı və müstəqillik dövründə də davam etdirilən mədəniyyət siyasətinin ən mühüm hissəsini indiyə qədər xalqın yaratmış olduğu mədəniyyətə xüsusi qayğının göstərilməsi təşkil edirdi. Yəni tarix boyu Azərbaycan xalqının yaratdığı mədəniyyətin qorunması, təbliğ olunması, klassiklərin xalqa tanıtdırılması istiqamətində müxtəlif tədbirlər və s. keçirilirdi. Bu çox vacib idi, çünki xalq bəzən yaratdığı mədəniyyəti unuda da bilir.

Misal üçün, Dədə Qorqud eposunun yubileyinin keçirilməsini göstərə bilərik. Əsrlər boyu bu nəhəngliklə əsər ya unudulmuş, ya da ortaya çıxandan sonra dövlət tərəfindən qadağan olunmuşdu. Amma Heydər Əliyev onu tam səviyyəsi və gücü ilə Azərbaycan xalqına qaytardı. Nizami, Füzuli, Vaqif kimi söz ustadlarının, eləcə də mədəniyyətimizin və incəsənətimizin ən müxtəlif sahələrinə aid abidələrin xalqa tanıtdırılması Heydər Əliyevin mədəniyyət siyasətinin əsasını təşkil edir.

Ulu öndər Heydər Əliyevin mədəniyyət quruculuğu sahəsində gördüyü ikinci mühüm iş müasir dövrdə yaşayan mədəniyyət və incəsənət xadimlərinə xüsusi diqqət yetirilməsi idi. Çünki incəsənəti, mədəniyyəti, ədəbiyyatı böyük istedadlar yaradır və yaşadırlar. Heydər Əliyevin dövründə yaşayan bütün mədəniyyət xadimlərinə, istedadlara qayğı göstərilib, onlara mükafatlar verilib, yaradıcılıqlarının inkişafı üçün təsirli işlər görülüb, cəmiyyətdə nüfuzları yüksəldilib.

Üçüncü mühüm məsələ isə Azərbaycan mədəniyyətinin müasir şəraitdə həm inkişafı, həm dünyada tanıdılması, həm də dünya mədəniyyətinin ölkəmizdə tanıdılması idi. Yəni bugünkü bazar münasibətləri şəraitində mədəniyyəti qorumağın prinsiplərinin hazırlanması da çox mühüm məsələdir. Çünki müasir dövr tamamilə fərqli iqtisadi münasibətlər sistemində özünün yeni prinsiplərini diqtə edir. Azərbaycan mədəniyyətinin bu tələbə uyğunlaşdırılması, müasir dünya ilə ayaqlaşa bilməsi üçün prinsiplərin işlənib həyata keçirilməsi də Heydər Əliyevin mədəniyyət quruculuğu siyasətinə məxsusdur.

Zaman keçdikcə, biz ümummilli liderimizin fəaliyyətinin məntiqini, mahiyyətini daha yaxşı dərk etməyə başlayırıq. Heydər Əliyev heç bir işini yarımçıq qoymurdu. O hansı işə başlayırdısa, yüz ölçüb bir biçib, tələsmədən və gecikmədən həyata keçirirdi. Bu, ən müxtəlif sahələrə aid olan məsələlərdə – hərc-mərcliyin aradan qaldırılmasından başlanmış, təsərrüfat həyatının qaydaya salınmasına qədər hər sahədə özünü aydın göstərirdi. Bu, yalnız böyük dövlət adamlarına məxsus keyfiyyətlərdir.

Heç də təsadüfi deyil ki, Heydər Əliyev bu fəaliyyət tipologiyası ilə dünyanın ən böyük dövlət xadimləri ilə müqayisə olunur. Məsələn, bəziləri Heydər Əliyevin fəaliyyətini Atatürkün fəaliyyəti ilə müqayisə edirlər. Mən Heydər Əliyevin bir fikrini həmişə xatırlayıram. O, Atatürkün xidmətlərindən danışarkən demişdi ki, Türkiyə Cümhuriyyəti Atatürkün, sadəcə, fəaliyyətinin nəticəsi deyildi. Türkiyə Cümhuriyyəti həm də Atatürkün mübarizəsinin, cəsarətinin nəticəsi idi. Eynilə, Azərbaycan dövlətinin yaranması, Azərbaycan müstəqilliyinin möhkəmlənməsi, sadəcə, bir dövlət başçısı kimi Heydər Əliyevin fəaliyyətinin yox, həm də onun mübarizəsinin, cəsarətinin, böyük siyasi iradəsinin nəticəsidir.

Bu gün isə bu işləri Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan artıq yüksək səviyyədə inkişaf yoluna qədəm qoyub. Ölkəmizdə böyük quruculuq işləri həyata keçirilib və vətəndaşların sosial həyatı, rifahı əvvəlki dövrlərlə müqayisə olunmayacaq qədər yüksəkdir. Qazanılan bu uğurlar bütün sferalarda özünü göstərir. Təbii ki, bütün bu uğurlar və bundan sonrakı dövrlərdə qazanacağımız uğurlar ulu öndər Heydər Əliyevin qoymuş olduğu möhkəm bünövrəyə söykənir.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 17 ildə həm iqtisadi, həm siyasi, həm də mədəni sahələrdə beynəlxalq əlaqələrin, başqa sözlə, Azərbaycan– Dünya dialoqunun zəngin təcrübəsi qazanılmasıdır. Bu isə ilk növbədə, o deməkdir ki, Azərbaycan xalqının milli idealları, bir vaxtlar olduğu kimi, məhdud bir miqyasda qalmayıb, "özümüz deyib, özümüz eşidək" prinsipi ilə mövcud olmur, universallaşır, hüdudlarını genişləndirir, ümumən insan və dünya təfəkkürü mövqeyindən görünüb etiraf olunur.

Beynəlxalq "dialoq"lara ev sahibliyi edən Azərbaycan indiyə qədər görünməmiş bir miqyasda müxtəlif ideyaların, ideologiyaların həmsöhbət olmasına inamla münsiflik etdikcə azərbaycançılıq məfkurəsi də zənginləşir, beynəlxalq nüfuzunu gücləndirir, yüksək standartlı paradiqmalara yiyələnir. Azərbaycan xalqının intellektual səviyyəsinin daha da yüksəldilməsi, müasir texnologiyalara yiyələnməsinin sürətlənməsi, perspektivli özünüifadə və özünütəsdiq metodlarının, üsullarının və vərdişlərinin xüsusilə gənc nəsil tərəfindən mənimsənilməsi də İlham Əliyevin liderliyi altında uğurla gerçəkləşdirilmişdir.

Azərbaycanın regionda, ümumən, beynəlxalq aləmdə söz sahibi olması, onun mövqeyi ilə hesablaşılması, çoxstandartlılığı, xüsusilə cari konyunkturluluğu ilə tanınan dünyanın "haqq-hesab"ından kənarda qalıb təcrid olunmaması da İlham Əliyevin siyasi varislik missiyasının təntənəsini göstərən ciddi tarixi nailiyyətdir. Bu uğurun özünəməxsusluğu ondan ibarətdir ki, Azərbaycan xalqının milli düşüncəsi çevik, elastik, diplomatik resurslara yiyələnmiş, hər hansı "gözlənilməz" ideoloji hücumlara qarşı müqavimət, hətta əks-hücum "immunitetlər"i qazanmışdır. Siyasi varisliyin bütün dünyada diqqətlə izlənilən İlham Əliyev nümunəsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir.

Dünya şöhrətli siyasət və dövlət xadimi olan Heydər Əliyev, hər şeydən əvvəl, misilsiz bir azərbaycançı idi. O, azərbaycançılıq ideyasını həyata keçirmiş bir dövlət xadimi olaraq Azərbaycan tarixində yaşayır. Bu xüsusi bir hadisədir. Heydər Əliyev həm də, sözün həqiqi mənasında, bir yenilikçi idi. Onun bu xüsusiyyəti istər sovet dövründə, istərsə də yeni dövrdə daim yeniliklər yaratmışdı.

Qüdrətli qurucu lider olan Heydər Əliyevin Azərbaycan dövlətçiliyini inkişaf etdirən, müstəqilliyini möhkəmləndirən addımları bir neçə sahə ilə məhdudlaşmırdı. O bütün sahələrdə, çox genişmiqyaslı tədbirlər görür, əsaslı islahatlar aparırdı. Heydər Əliyevin fəaliyyəti, Azərbaycan dövlətçiliyi, xalqımız qarşısındakı xidmətləri o qədər zəngindir ki, bunu təhlil etməklə, yazmaqla, araşdırmaqla sonuna gedib çıxmaq mümkün deyil.

Ümummilli lider Heydər Əliyevin ideyaları həmişə Azərbaycanın milli maraqlarının və tərəqqisinin önündə gedəcək. Ulu öndərin ölməz xatirəsi xalqımız üçün həmişə əziz və unudulmaz olacaq. Heydər Əliyev ideyalarının həmişəyaşarlığı dövlət müstəqilliyimizin əbədiliyinin tükənməz qaynağıdır.

***Nizami CƏFƏROV,***
***Milli Məclisin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin müdiri, akademik***